**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 3-44/3-9-13/2024

**Bakı şəhəri** "13" avqust **2024-cü il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş meyvə bağlarında bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Quba-Xaçmaz, Dağlıq Şirvan və Gəncə-Daşkəsən regional bölmələrinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən Xaçmaz rayonunun Mürşüdoba kəndində yerləşən, fiziki şəxs Orucəliyev Mayıl Hacəli oğluna məxsus qarışıq meyvə bağında (1.2 ha), Nərəcan kəndində yerləşən, fiziki şəxs Vəlimməmmədov Rəvan Nazim oğluna məxsus meyvə bağında (4 ha), Şamaxı rayonunun Mədrəsə kəndində yerləşən, fiziki şəxs İmanov Rizvan Gülümxan oğluna məxsus gilas bağında (3 ha), Göygöl rayonunda yerləşən, hüquqi şəxs "Aqro-Azərinvest" MMC-yə məxsus üzüm bağında (65 ha) və Göygöl rayonunun Qızılqaya kəndində yerləşən, hüquqi şəxs "Göygöl Şərab Zavodu" ASC-yə məxsus üzüm bağında (32.47 ha) (bundan sonra – sirayətlənmiş sahələr) fitosanitar müşahidələr aparılmış, sirayətlənmə əlamətləri olan bitkilərdən götürülmüş nümunələr laborator müayinələrə cəlb edilmişdir. 2024-cü il 31 iyul tarixli 59535P3/LAB03-24002-T-002 nömrəli, 2024-cü il 31 iyul tarixli 1YSP5ZB/LAB03-24002-T-002 nömrəli, 2024-cü il 18 iyul tarixli OZPRWPH/LAB03-24005-T-005 nömrəli, 2024-cü il 7 avqust tarixli AZ-19080277/LAB03-24006-T-006 nömrəli və 2024-cü il 7 avqust tarixli AZ-20090799/LAB03-24084-T-084 nömrəli sınaq protokollarına əsasən nümunələrdə karantin tətbiq edilən qonur monilioz çürümə (*Monilinia fructicola*) xəstəlik törədicisinin mövcudluğu təsdiqlənmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-12-ci yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Agentliyin Quba-Xaçmaz, Dağlıq Şirvan və Gəncə-Daşkəsən regional bölmələrinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşlarına tapşırılsın:

1.1. Xaçmaz, Şamaxı və Göygöl rayonları ərazisində qonur monilioz çürümə xəstəliyi ilə yoluxmuş ərazilərin sərhədləri müəyyən edilsin;

1.2. sirayətlənmiş sahələrdən əkin materiallarının götürülməsinə və digər təsərrüfatlarda əkilməsinə və ya calaq məqsədilə istifadəsinə icazə verilməsin.

**2.** Sirayətlənmiş sahələr ən azı üç il ardıcıl olaraq Milli Monitorinq Planına daxil edilsin və digər zərərli orqanizmlərlə yanaşı, qonur monilioz çürümə xəstəliyinə görə də laborator müayinələrə cəlb edilsin.

**3.** Sirayətlənmiş sahələrdə və ətrafındakı 5-7 km radius ərazidə arı pətəkləri yerləşdirilməsin.

**4.** Sirayətlənmiş sahələrdə yarpaqlar töküldükdən sonra asılı halda qalan mumyalaşmış və yerə tökülmüş meyvələr yığılaraq, digər bitki qalıqları ilə birlikdə sahədən çıxarılsın və yandırılsın.

**5.** Sirayətlənmiş sahələrdə təsərrüfat işləri zamanı istifadə edilən bütün avadanlıqlar, alətlər, qablaşdırma vasitələri və bu sahədə istehsal edilmiş meyvənin saxlandığı anbarlar dərhal və hərtərəfli təmizlənsin və dezinfeksiya edilsin.

**6.** Sirayətlənmiş sahələrdə istifadə edilən texnika və alətlərin yalnız təmizlənərək dezinfeksiya edildikdən sonra digər sahələrdə istifadəsinə icazə verilsin.

**7.** Vegetasiya dövründə bitkinin yerüstü hissəsini əhatə edəcək şəkildə tətbiq qaydalarına uyğun olaraq müvafiq fungisidlərlə çiləmə aparılsın.

**8.** Aqrotexniki tədbirlər çərçivəsində havalandırmanı təmin etmək məqsədilə budama işləri aparılsın və alaq bitkiləri ilə mübarizə ön planda saxlanılsın.

**9.** Yazda bitkilər çiçək açdıqdan sonra müntəzəm nəzarətdə saxlanılsın və sirayətlənmiş zoğlar 20-30 sm aşağı hissədən kəsilsin və məhv edilsin.

**10.** Məhsul yığımından bir ay əvvəl bitkilər üzərində müşahidələr aparılsın və sirayətlənmə əlamətləri müşahidə edilən meyvələr ağaclardan kənarlaşdırılaraq məhv edilsin. Meyvələrin kənarlaşdırılması səhər saatlarında, küləksiz hava şəraitində həyata keçirilsin.

**11.** Məhsul yığımı və meyvələrin saxlanması zamanı mexaniki zədələnmələrin qarşısı alınsın.

**12.** Pestisidlərdən istifadə zamanı istehsal olunan məhsulda pestisidlərin qalıq miqdarının yol verilən həddən artıq olmaması üçün istifadə reqlamenti gözlənilsin və Agentliyin sədrinin 2020-ci il 30 yanvar tarixli Ü/012 nömrəli əmri ilə təsdiq edilmiş "Pestisidlərdən istifadə zamanı təhlükəsizlik və şəxsi gigiyena qaydalarına dair Təlimat"da göstərilən təhlükəsizlik qaydalarına ciddi riayət edilsin.

**13.** Bu Qərarın icrasına nəzarət Agentliyin Quba-Xaçmaz, Dağlıq Şirvan və Gəncə-Daşkəsən regional bölmələri tərəfindən həyata keçirilsin.

**14.** Bu Qərarın icrasından yayınan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**15.** Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi bu Qərarın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Bitki sağlamlığı və bioloji təhlükəsizlik**
**şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**

Baş Dövlət
Fitosanitar Müfəttişi
Chief Phytosanitary
Officer
Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi • Food Safety Agency of the Republic of Azerbaijan •